**Ayağa dur, Azərbaycan, səninləyəm!**
**Məmməd Araz**

Nə yatmısan, qoca vulkan,
Səninləyəm!
Ayağa dur, Azərbaycan,
Səninləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik,
Səndən qeyri biz hamımız ölə billik.
Bu Şəhriyar harayıdır,
Bu Bəxtiyar harayıdır.
Hanı sənin tufan yıxan,
Gürşad boğan yurda oğul oğulların?
Qara çoban, Dəli Domrul oğulların?
Çək sinənə qayaları, yamaq elə
Haqq yolunu ayağına dolaq elə!
Bayrağını Xəzər boyda bayraq elə!
Enməzliyə qalxmış olan bayrağını,
Azərbaycan!
Azərbaycan!
Azərbaycan bayrağını!
Ayağa dur, Azərbaycan,
Səninləyəm!
Bunu bizə zaman deyir,
Məzarından baş qaldıran baban deyir,
Nər oğlu nər,
Səninləyəm!
Səninləyəm silah tutan,
Külüng tutan, yaba tutan,
Kösöv tutan, nişanlı ər,
Səninləyəm!

Səninləyəm, qız atası!
Hanı nərən, hanı səsin!
Hanı andın!
Yoxsa sən də yatmışlara, batmışlara
Qeyrətini satmışlara xırdalandın!!!

Gözünü sil, Vətən oğlu, ayağa qalx!
Üfüqünə bir yaxşı bax.
Sərhəddinə bir yaxşı bax.
Sərhəddinin kəməndinə bir yaxşı bax!
Dur, içində qorxunu boğ,

Ölümünlə qalımını ayırd elə,
Dur, içindən dovşanı qov,
Dur, özünü bozqurd elə!
Bir səsindən min səs dinər
Neçə-neçə daşa dönmuş dinməz dinər
Oddan bitər, qandan bitər ayılmazlar
Mərd oğullar mərdliyilə öyünməzlər.
Torpaq altda ölümlüyə gömülməzlər
Varım-yoxum, səninləyəm,
Azım-çoxum, səninləyəm,
Şirin yuxum, səninləyəm,
Yıxın məni söz atından,
Atın məni tank altına.
Əzin məni xıncım-xıncım,
Kəsmir əgər söz qılıncım.
Didin məni didim-didim,
Atın məni tank altına
Qundaqdaki bir körpəni xilas edim
Neçə səni, neçə məni xilas edim
Səninləyəm, sözü qəmli, özü dəmli, rəhbər adam!
1918-da vuruşurdu, danışmırdı, rəncbər atan, rəncbər atam
Səninləyəm haqq ədalət,
Səninləyəm!
Milli qürur, milli qeyrət, səninləyəm!
Səpil quma, göyər yerdə, bit qayada,
Gizli nifrət, açıq nifrət, səninləyəm

Oyat bizi, ey Yaradan, səninləyəm!
Ya bilmərrə yatırt bizi,
Ya bilmərrə oyat bizi,
Ya yenidən yarat bizi!
Ey Yaradan, səninləyəm!
Səninləyəm, yatmış vulkan,
Səninləyəm!
Ayağa dur, Azərbaycan,
Səninləyəm.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Aytən Əliyeva
Redaktə etdi və veb üçün hazırladı: Aydan Nəcəfova
AZERİ.orga qoyuldu: yanvar 2005